Ədalət.-2016.-23 dekabr.-S.4.

# FÜZULİ DƏRYASINDAN İNCİLƏR

**Günəş nur paylamaq, istilik, həyat bəxş etmək işini davam etdirir: Füzuli ruh aləmimizi, mənəviyyatımızı yorulmadan arılaşdırdığı, saflaşdırdığı kimi...**

Planetlər Günəşin cazibəsindən çıxa bilmir və əslində çıxmaq istəmir, söz xiridarlarının Füzuli cəzbindən kənar olmaq istəmədikləri kimi...

Deməli, Füzulidə bir Günəş tükənməzliyi və cazibəsi var, yaşamaq istəyən varlıqların Günəşə, xoşbəxt olmaq istəyən Yer əşrəflərinin Füzuliyə can atmağının sirri eyni məqamda birləşir.

Söz Adəm övladı üçün müqəddəs məfhumdur. SÖZ soyuqdan üşüyəni isidə, istidən boğulanı sərinlədə, dağ qamətli bir igidi bir andaca yerlərdə sürüyə, cılız gördüyünü nəhəngləşdirə, sağlam birini bir andaca öldürə, ölüm yatağındakı bir zavallını həyata qaytara bilən İLAHİ NEMƏTDİR!!!

Bu mənada Füzuli sözü öpüb göz üstə qoyulası sözlərdəndir. Birinci ona görə ki, o sözlər Allah sevgisilə qaynayan qəlb bulağından süzülür. Allahın izni və istəyi olmadan heç bir şair Füzuli kimi söz deyə bilməz." Allahdan danışanların dili uzun olar, Allahdan danışanların dili qısa olar" kəlamını xatırlasaq yerinə düşər. İlahi sevgi Füzulini dünyanın ən doyulmaz " uzunçu"su - füzulisi elədi . Elə İlahi sevgi də Füzuli sözünü haram, xəyanət , yalan, qeybət, nəzmin ən qorxulu xəstəliyi olan Mənasızlıqdan (! ) mühafizə etdi.

Bu yazıda çağdaş qəzəl şeirimizin mahir yaradıcısı Xaqani Əmini Füzuli qəzəllərinin məhz Məna Dəryasına baş vuracaq , bu incilərin bir neçəsinin dəyərini müasir oxucularla paylaşacaq.

**Aygün Cəfərova,**
**filoloq, ədəbiyyatşünas**

### *Xaqani ƏMİNİNİN izahında Füzulidən seçmələr*

Füzuli şeiriyyatı hər zaman bizi heyrətləndirməyə davam edir. Bu nümunələrin öyrənilməsi, izah olunması vacibdir. Çünki Füzuli sənətkarlığının ucalığını anlayıb, anlatmaq və öyrənmək bizim vətəndaşlıq borcumuzdur.

**Eşq əhlin atəşi-hicranə eylərsən kəbab,**
**Dönə-dönə imtəhan etdim, budur adət sana.**
**Eşq əhlin hicran atəşində kabab edərsən**
**Dönə-dönə imtahan etdim, bu sənin adətindir .**

Aşiq öz sevgilisindən şikayət edir. Onun həmişə aşiqləri ayrılıq atəşində yandırmasından danışır.

Təsadüfi deyil ki, şair burada " dönə-dönə " ifadəsin qeyd etmişdir. Bu söz beytin iki mə`nada anlaşılmasına səbəb olur .

1) "Dönə-dönə" yə`ni " təkrar-təkrar" mənasında olduqda , beyt belə anlaşılır ki, Eşq əhlin( aşiqləri) ayrılıq odunda kabab edərsən( yə`ni yandırarsan ), Təkrar-təkrar imtahan etdim, sənin adətin budur.

2) " Dönə-dönə" həm də dönmək mə`nasını verir.. Bildiyimizə görə ,kababı bişirəndə odun üzərində döndərərlər. Belə olan halda



beyti bu cür də anlamaq olar: Aşiqləri ayrılıq odunda kabab edərsən, Eşq odunun üzərində dönə-dönə imtahan eylədim, sənin adətin budur.

***

**İstədim mərhəm oxundan ciyərim yarəsinə,**
**Atdı min ox ki, dəyər hər biri bir parəsinə.**

Mərhəm - yaraya , yaxud ağrıyan yerə sürtülmək üçün işlənən yağlı qatı dərmandır.

Aydındır ki, oxun dəyməsi dedikdə ,batmağı nəzərdə tutulur. Lakin Füzuli qəsdən" dəyər " sözünü işlətmişdir. Əgər "batmaq" sözünü işlətsəydi yalnız bir mə`na anlaşılardı. "Dəyər " sözünü işlətməklə bu beytdən iki mə`na hasil olur.

1) Yardan ciyərimin yarasına mərhəm istədim, o da ciyərimin hər parasına batan min ox atdı .

2) "Dəyər " sözü burada "qədr-qiymət" anlamındadır :

Yardan ciyərimin yarasına mərhəm istədim , ciyərimin hər parası dəyərində min ox atdı.

***

**Çəkməz oldu könül oxlar yükün, ol sərv məgər**
**Çəkərək atə oxun, rəhm edə biçarəsinə.**

Bir daha Füzulinin ustalığını müşahidə edirik:

1) Aşiqin könlünə o qədər ox sancılıb ki, artıq onu daşımağa gücü yetmir. Öz mə`şuqəsindən rəhm diləyir.Daha bir ox da diləyir ki, onu öldürüb bu əziyyətdən qurtara. Bu ona bənzəyir ki, bir kəs ox yarasından əldən düşür, lakin ölüb canın qurtara bilmir. Bu sonuncu, lakin öldürücü ox aşiq üçün qurtuluşdur, yarın ona qarşı olan inayətidir, mərhəmətidir.

2) Füzulinin ustalıqla istifadə etdiyi "çəkməz", "çəkərək " sözləri diqqəti cəlb edir: Aşiq oxlar yükü çəkdiyindən öz dilbərinə şikayətlə dil açır və ondan rəhm diləyir. İkinci misradakı "çəkərək atə oxun" ifadəsi "oxu çıxardıb yerə atmaq" mə`nasını verir.Aşiqin qəlbinə sancılan xeyli ox ağırlıq edir, onu əldən salır. Öz sevgilisindən bu oxları dartıb çıxartmağı xahiş edir.